# Metrologiya, standartlaşdırma və sertifikatlaşdırma haqqında qiymətli əsər



Keyfiyyət problemi bütün ölkələr üçün bazar iqtisadiyyatı yetkinliyindən asılı olmayaraq aktualdır. Yada salmaq kifayətdir ki, İkinci Dünya müharibəsində dağıdılaraq əzilmiş Yaponiyada və Almaniyada standartlaşdırma və metrologiya metodlarının bacarıqla tətbiqi məhsulun keyfiyyətinin təmin olunmasına şərait yaratdı, ölkələrin iqtisadiyyatının yeniləşməsinə start verdi. Rus filosofu və siyasi mütəfəkkir İ.A.İlyinin (1883-1954) sözlərini hazırda teztez yada salırlar: "...xalqa bir axirət və bir xilas var – keyfiyyətə və onun mədəniyyətinə qayıtmaq".

Ölkədə iqtisadiyyatın dinamik inkişafının təmin edilməsi malların və xidmətlərin istər daxili, istərsə də xarici bazarda rəqabətədavamlılığını qaldırmadan mümkün deyildir.

Kommersiya fəaliyyətinin çoxcəhətli mühüm aspekti – metrologiya, standartlaşdırma və sertifikatlaşdırma metodları məhsulların, işlərin və xidmətlərin keyfiyyətinin təmin edilməsinin alətidir.

**Azərbaycan Kooperasiya Universitetinin professoru, kafedra müdiri Elmidar Ələkbərovun müəllifi olduğu "Metrologiya, standartlaşdırma, sertifikatlaşdırma" kitabında** əksini tapmış bu biliklər, malın rəqabət qabiliyyətliyinin əhəmiyyətli hissəsi sayılan standartlaşdırmanın və sertifikatlaşdırmanın imkanlarını və üstünlüklərini yeni tərzdə düşünülmüş və sivil qaydada tətbiq etmək qabiliyyətinə malik mütəxəssislər, menecerlər, marketoloqlar üçün mühüm əhəmiyyət kəsb edir.

Metrologiya, standartlaşdırma və uyğunluğun təsdiqlənməsi sahəsində gedən dəyişikliklər aşağıdakı səbəblərdən "Metrologiya, standartlaşdırma və sertifikatlaşdırma" dərs vəsaitinin yeni nəşrinin hazırlanmasını önəmə gətirmişdi. Ali təhsil müəssisələrinin bakalavr və magistratura səviyyələrində kredit sistemi ilə təhsilin təşkili qaydalarının qüvvəyə minməsi, iqtisadiyyatda dövlət idarəetməsinin əvəzinə bazar mexanizminin gəlişi, metrologiyanın, standartlaşdırmanın və uyğunluğun təsdiqlənməsinin birbaşa öz sisteminin yaranması, akkreditləşmə prosesinin geniş inkişafı, müəssisələrin əksəriyyətinin xarici bazara çıxış imkanı və burada texniki maneələrlə üzləşməsi, rəqabətədavamlılıqda məhsulun keyfiyyətinin üstünlük rolu, mühasibat uçotu, bank xidmətləri və bir sıra digər qeyri-istehsal sahələrinin metrologiya, standartlaşdırma və uyğunluğun təsdiqlənməsi sisteminə daxil edilməsi və s. bu kitabda öz əksini tapmışdır.

Metrologiya, standartlaşdırma və sertifikatlaşdırma arasında sıx bağlılığı olduğundan, onların bir tədris kursunda öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.

Kitab standartlaşdırmanın, sertifikatlaşdırmanın, metrologiyanın əsasları ilə bağlı bir çox məsələləri əhatə edir. Diqqət daha çox bazar mexanizmləri, müəssisələrin ixrac fəaliyyəti, məhsulların rəqabətlilik səviyyəsinin qalxması, marketinq fəaliyyəti ilə bağlı aktual problemlərin üzərində cəmləşdirilir. Metrologiyanın, standartlaşdırmanın və sertifikatlaşdırmanın xüsusiyyətləri milli, regional və beynəlxalq səviyyələrdə baxılır.

Burada ilk dəfə standartlaşdırmanın və sertifikatlaşdırmanın yeni inkişaf aspektləri - marketinq təcrübəsində standartlaşdırma, sosial loyallıq, ölkədə xidmətlərin standartlaşdırılması verilir. Xidmətlərin keyfiyyətinin idarə edilməsi, ekologiya üzrə beynəlxalq universal standartların ekosertifikatlaşdırmanın təşkili üçün əsas yaratmış TQM (Total Quality Managent) konsepsiyasının mahiyyəti işıqlandırılır.

Kitabda son illər istər ölkədə, istərsə də xaricdə aparılmış elmi tədqiqatların və praktiki təcrübənin nəticələri ümumiləşdirilmişdir.

Oxucuların rahatlığı üçün əlavələrdə metrologiya, standartlaşdırma və sertifikatlaşdırma sahəsində ölkənin qüvvədə olan qanunları və qərarları, həmçinin, dövlət standartları, metodik işləmələri, tövsiyələri və digər məlumatlandırıcı materialları verilir. Burada tələbələr tərəfindən müəyyən tədris tapşırıqlarının yerinə yetirilməsi üçün xeyirli olan əlavələr yerləşdirilmişdir.

Tələbəni nəzəri biliklərlə silahlandırmaqla yanaşı, ona təcrübə vərdişləri aşılamaq məqsədi ilə dərs vəsaitinə müzakirə üçün, testləşdirmə və situasiyalı (hadisələrin gedişi ilə bağlı) məsələlər daxil edilmişdir. Situasiyalı məsələlər müəyyən cavabı, yaxud yeganə həlli olan riyazi məsələ deyildir. Situasiyalı məsələlər auditoriyanı fəallaşdırmaq, müzakirəni və mühakiməni həvəsləndirmək, tələbənin almış olduğu bütün biliklərini səfərbər etmək məqsədi daşıyır. Onlar fəaliyyətin digər sahələrində olduğu kimi, kommersiya sahəsinin gələcək mütəxəssisləri üçün çox mühüm keyfiyyət sayılan hissiyatı inkişaf etdirir.

"Metrologiya, standartlaşdırma və sertifikatlaşdırma" kursunun ali təhsil sistemində idarəetmə, mühasibat uçotu və audit, marketinq və menecment, dünya iqtisadiyyatı və kommersiya, ekspertiza və texnologiya istiqamətli fakültələrdə fənlərin siyahısına daxil edilmişdir.

Azərbaycanda bazar mexanizmi firmaların, müəssisələrin və təşkilatların daxili və xarici bazarlarda müstəqil fəaliyyəti üçün yeni şərtlər təyin etmişdir. Bu müəssisələri bütün dünyada qəbul edilmiş "oyun qaydalarını" öyrənməyə, mənimsəməyə və öz təcrübəsində tətbiq etməyə vadar edir. Beynəlxalq əməkdaşlıq isə bu qaydaların bütün istiqamətlərdə və səviyyələrdə beynəlxalq və milli normalara uyğunlaşdırılmasını tələb edir. Metrologiya, standartlaşdırma və sertifikatlaşdırma planlı iqtisadiyyat dövründə (SSRİ dövründə) maneəyə çevrilərək, sivil iqtisadi zonaya inteqrasiyasını mümkünsüz edirdi.

Məhz müstəqillik dövründə "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Standartlaşdırma haqqında", "Milli sertifikatlaşdırma sistemi haqqında", "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" qəbul edilmiş qanunlar fəaliyyət sahələrində iqtisadiyyatın təşkili üçün əhəmiyyətli yeniliklərin daxil edilməsinə hüquqi baza yaratdı. Bununla yanaşı, onlar getdikcə təkmilləşdirilməli və yeniləri yaradılmalıdır.

Kommersiya fəaliyyətində (ticarətdə, bank fəaliyyətində və s.) metroloji qaydalara əməl edilməsi həqiqətə uyğun gəlməyən ölçmə nəticələrindən alınan material itkiləri son dərəcə aşağı salmağa imkan verir.

Standartlaşdırmanın, metrologiyanın və sertifikatlaşdırmanın ölkə qaydalarının beynəlxalq qaydalara yaxınlaşdırılması məsələsi çox vacibdir. Bu, Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) daxil olması və ölkənin bu təşkilatın çərçivəsində fəaliyyəti üçün mühüm şərtdir.

Sahibkarlıq formalarının yuxarıda göstərilən müxtəlif sahələrində ölçmələrin vəhdətinin rolu mühüm əhəmiyyət kəsb edir. Belə ki, "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Qanunun qəbulu ilə bərabər, metroloji fəaliyyətin inzibati idarəetmə prinsipindən qanunvericilik prinsipinə keçidi ilə xarakterizə olunan metrologiyanın inkişafının yeni mərhələsi başlandı. Bununla yanaşı, bu qanun metroloji işin dövlət xarakterli prinsipini saxlamağa, ölkədəki ölçmələr sistemini əhəmiyyətli dərəcədə beynəlxalq təcrübəyə uyğunlaşdırmağa imkan verir.

Əvvəllər ölçü vahidi kimi "qarış" və "dirsək" olmuşdur. Qoyulmuş çəkinin vahidinin qorunub saxlanması üçün hələ qədim zamanlarda etalon (nümunəvi) çəkilər yaradılırdı. Onlara ehtimalla yanaşırdılar: qədimlərdə onlar qiymətli əşyaların saxlanması üçün daha etibarlı sayılan iqamətgahlarda saxlanılırdı.

Sənaye istehsalı inkişaf etdikcə, ölçmələrin tətbiqinə və saxlanılmasına tələblər yüksəlirdi.

Standartlaşdırmanın təşkili və texnologiyasına gəldikdə demək lazımdır ki, istehsalın sürətli inkişaf tempi maşın və




cihazların qarşılıqlı əlaqəli sistemlərinin tətbiqi, maddə və maşınların geniş nomenklaturasından istifadə edilməsilə xarakterizə olunur. *Standartlaşdırma* - müəyyən sahədə real mövcud olan, yaxud potensial məsələlərə münasibətdə ümumi və çoxdəfəli istifadə üçün bilavasitə müddəaların müəyyənləşdirilməsi yolu ilə tənzimləmənin optimal dərəcəsinin əldə edilməsinə yönələn fəaliyyətdir.

Müstəqil Dövlətlər Birliyi (MDB) məkanında inkişafın başlanğıcı ölçü və çəki metrik sisteminin daxil edilməsi ilə bağlıdır. 1925-ci ildə standartlaşdırma üzrə ilk mərkəzi orqan yaradıldı. Bu, Əmək və Müdafiə Şurası nəzdində standartlaşdırma üzrə Komitə idi. Komitənin vəzifəsinə təşkilatlar tərəfindən daxili standartların işlənməsi üzərində rəhbərliyin təşkili, həmçinin standartların təsdiqi və nəşr edilməsi daxil idi.

Komitə 1926-cı ildə buğdanın seleksiya sortları, çuğun, qara metaldan ərinti və bəzi digər xalq istehlakı malları üçün ilk Ümumittifaq standartlarını işləyib hazırladı.

1940-ci ildə Ümumittifaq Kommunist (bolşeviklər) Partiyasının və SSRİ Sovnarxozun Qərarı ilə narkomlar tərəfindən standartların təsdiqi qaydası ləğv edilərək, SSRİ Xalq Komissarları Şurası nəzdində standartlaşdırma üzrə Ümumittifaq Komitə yaradıldı. Bu vaxtlar müxtəlif sahə standartları əvəzinə Ümumittifaq dövlət standartı daxil edilmişdir. Sonradan standartlaşdırma üzrə Ümumittifaq komitə SSRİ Nazirlər Soveti yanında standartlar, ölçü və ölçü cihazları Komitəsinə çevrilmişdir.

SSRİ Nazirlər Sovetinin "Ölkədə standartlaşdırma üzrə işlərin yaxşılaşdırılması barədə" Qərarına uyğun 1968-ci ildə ilk dəfə olaraq dünya təcrübəsində dövlət standartlar kompleksi işlənib təsdiq edilmişdir. Bura SSRİ-nin dövlət standartı, respublika standartı, sahə standartı, müəssisə standartı daxil edilmişdir.

Standartlaşdırmanın inkişafında həlledici məqam SSRİ Nazirlər Sovetinin 1985-ci ildə "SSRİ-də standartlaşdırma üzrə işlərin təşkili barədə" qəbul etdiyi Qərar olmuşdur. Bu qərarda standartlaşdırmanın başlıca vəzifəsi kimi, məhsulların mütərəqqi tələblərini təyin edən normativ-texniki sənədlər sisteminin işlənməsi, hazırlanması və tətbiqi, həmçinin bu sənədlərdən düzgün istifadə edilməsinə nəzarəti təmin edən qaydalar qoyulur.

Ötən əsrin 90-cı illərinin əvvəllərində keçmiş Sovetlər İttifaqının ərazisində müstəqil dövlətlərin yaradılması, bu ölkələrin qarşısında standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahəsində yeni əməkdaşlıq formalarının axtarışı tələblərini qoydu.

Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrin hökumətləri bu sahədə birgə texniki siyasətin aparılması vacibliyini zəruri sayaraq 1992-ci ildə standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahəsində birgə razılaşdırılmış siyasətin keçirilməsinə dair Məramnaməyə imzaladılar. Məramnaməyə uyğun standartlaşdırma, metrologiya və sertifikatlaşdırma üzrə Dövlətlərarası Şura yaradıldı. Bunun vəzifəsinə dövlətlərarası səviyyədə standartlaşdırma, metrologiya və sertifikatlaşdırma üzrə işlərin təşkili daxil edilmişdir. Razılaşmanın imzalanması Azərbaycan Respublikasında dövlət standartlaşdırma sisteminin formalaşmasına başlanğıc idi.

1993-cü ildə "Standartlaşdırma haqqında" Qanunun qəbulu standartlaşdırmanın tarixində əlamətdar hadisədir. Bu, standartlaşdırma üzrə normativ sənədlərin işlənməsi və tətbiqi yolu ilə istehlakçıların maraqlarının dövlət tərəfindən müdafiəsini təyin etdi.

Bazar iqtisadiyyatı mexanizmlərinin tənzimlənməsində sertifikatlaşdırma böyük əhəmiyyət kəsb edir. Bir çox məhsul növləri və proseslər üçün o, məcburi sayılır, sertifikatlaşdırmaya uyğunluğun standartların tələblərinə təsdiqlənməsi kimi baxılır və çox hallarda məhsulların rəqabətədavamlılığını təyin edir. Burada sertifikatlaşdırmanın müxtəlif növləri üzrə işlərin aparılması vasitələrinə və metodlarına baxılır. Son illər ənənəvi geniş tətbiq edilən məhsulların sertifikatlaşdırılması siyahısına ticarətdə, turizmdə, məişət xidmətində və hətta təhsil sahəsində xidmətlərin sertifikatlaşdırılması əlavə edilmişdir. Keyfiyyət sistemlərinin və müəssisələrin ekoloji idarə edilməsinin İSO 9000 və 14000 seriyalı standartlarının tələblərinə uyğunluğunun sertifikatlaşdırılması aktiv inkişaf edir.

Metrologiyada sertifikatlaşdırma, cihazların (tərəzilərin, çəki daşlarının) rəsmi yoxlanması və damğalanması (yaxud plomblanması) üzrə fəaliyyət çoxdan məlumdur. Damğalama, cihazın konstruktiv və metroloji xarakteristikalarına görə sertifikatlaşdırma tələblərinin ödənilməsini göstərən sübutdur.

Azərbaycanda sertifikatlaşdırma "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanuna uyğun 1993-cü ildən keçirilməyə başladı. O, xalq istehlakı mallarının təhlükəsizliyinin məcburi sertifikatlaşdırılmasını müəyyən etdi.

Məlum olduğu kimi, sertifikatlaşdırma ölkədə "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanunun qəbul edildiyi vaxtdan tətbiq edilməyə başlamışdır. Məhz bu dövrdə ölkənin bazarları böyük həcmdə, əksər hissəsi zay, hətta çox hallarda təhlükəli idxal malları ilə doldurulmağa başlamışdı. Dövlətstandartın çevik təşkil etdiyi sertifikatlaşdırma sisteminin köməyi ilə ölkəyə təhlükəli malların daxil olması məhdudlaşdırılır. Bununla sertifikatlaşdırma sistemi öz qoruyucu funksiyasını həyata keçirə bildi. Qeyd etmək lazımdır ki, sertifikatlaşdırmanın səmərəsi, ilk əvvəl cəmiyyətin müalicəsinə, zərərçəkənlərin reabilitasiyasına, obyektlərin bərpasına çəkilən xərclərin azaldılması ilə təyin olunur, çünki zay, məhsula, işə və xidmətə sertifikatın verilməsindən imtina edilməsi külli miqdarda insanları zədələmələrdən, zəhərlənmələrdən və xəstəliklərdən qoruyur.

Kitabın sonunda standartlaşdırmanın, sertifikatlaşdırmanın və metrologiyanın inkişaf perspektivləri geniş şərh olunur.

Kitabın elmi redaktəsini Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının akademiki, texnika elmləri doktoru, professor Nəriman Məmmədov etmişdir.

**Nəriman CAVADOV,**
**"Respublika".**